# Vyetnam Sosialist Respublikasının nümayəndə heyəti Qəbələyə səfər edib



Vyetnam Sosialist Respublikasının Quanq Nam əyaləti Xalq Komitəsinin Mədəniyyət, İdman və Turizm İdarəsinin rəisi Nquyen Thanh Honqın başçılıq etdiyi nümayəndə heyəti Qəbələ rayonuna səfər edib. Qonaqları Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev qarşılayıb. Heydər Əliyev Konqres Mərkəzində təşkil olunan görüşdə rayon icra hakimiyyətinin başçısı Qəbələnin tarixi, mədəni həyatı barədə məlumat verib, rayonda turizmin inkişafından, sosial-iqtisadi sahədə reallaşdırılan müxtəlif layihələrdən və əldə olunan uğurlardan danışıb.

900 il Qafqaz Albaniyasının paytaxtı olmuş qədim Qəbələnin Azərbaycan tarixinin ən parlaq səhifələrini təşkil etdiyini bildirən RİH-nin başçısı cəlbedici turizm diyarı kimi tanınan bölgənin, həm də beynəlxalq mədəniyyət mərkəzi kimi ölkənin ictimai həyatında mühüm rol oynadığını, hər il burada bir sıra beynəlxalq tədbirlərin, idman yarışlarının, musiqi festivallarının və rəsm sərgilərinin keçirildiyini qeyd edib. Ölkələrimiz və xalqlarımız arasında olan tarixi dostluq münasibətlərindən, qarşılıqlı əməkdaşlıq əlaqələrindən ətraflı söz açan rayon rəhbəri Vyetnamın Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən olduğunu bildirib.

Rayonumuzun bu günü barədə nümayəndə heyətinə geniş məlumat verən RİH-nin başçısı Qəbələdə müasir sənaye obyektlərinin, fabrik və zavodların tikilərək istifadəyə verildiyini, rayonda aqrar sektorun, xüsusilə kənd təsərrüfatının aparıcı sahəsi olan bağçılığın, əkinçiliyin və maldarlığın yüksək inkişaf etdiyini diqqətə çatdırıb.



Hər iki ölkənin iqtisadi potensialının artırılması ilə bağlı müsbət nəticələrin əldə olunduğunu söyləyən Səbuhi Abdullayev Azərbaycan və Vyetnam Respublikaları dövlət başçılarının qarşılıqlı səyləri nəticəsində ikitərəfli münasibətlərin möhkəmlənməsi istiqamətində mütərəqqi ənənələrin yarandığını və bu ənənələrin daha da möhkəmləndiyini qeyd edib.

Natiq Vyetnamlı qonaqların Qəbələdə keçirdiyi günlərin uzun müddət onların xatirələrində xoş duyğular yaradacağına əminliyini ifadə edib.

Vyetnam nümayəndə heyətinin başçısı Nquyen Thanh Honq onlara göstərilən diqqətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirib. O, Qəbələnin sosial-iqtisadi inkişafının, eləcə də füsunkar təbiətinin onu məftun etdiyini və bu tanışlığın təəssüratından silinməyəcək xoş xatirələr yaratdığını qeyd edib. Vyetnamlı qonaq bölgələrimiz arasında bir çox sahələrdə əməkdaşlığın yaranacağına, inkişaf etdiriləcəyinə və uğurlu nəticələrin əldə olunacağına əminliyini bildirib. Görüş əsnasında Nquyen Thanh Honq tərəflər arasında iqtisadi, ticarət və turizm sahəsində əməkdaşlıq perspektivlərini müzakirə etməyə hazır olduğunu söyləyib.

Görüşdə Vyetnamın iqtisadiyyatını və mədəni həyatını əks etdirən videoçarx nümayiş etdirilib.

Sonda tərəflər bir-birinə xatirə hədiyyələri təqdim ediblər.

Səfər çərçivəsində Vyetnamın nümayəndə heyəti "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi, stend atıcılığı kompleksi, "Gilan" Qida Şəhərciyi və Qəbələ Mədəniyyət Mərkəzi ilə tanış olub.

Nquyen Thanh Honqın başçılıq etdiyi Vyetnam Sosialist Respublikasının nümayəndə heyəti Qəbələdən xoş təssüratlarla ayrılıb.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto),**
**"Qəbələ**

# Göstərilən qayğıdan razılıq edirlər

***Qəbələ rayonunda əhalinin problemlərinin yerində həlli məqsədilə rayon icra hakimiyyəti başçısının sakinlərlə mütəmadi olaraq səyyar görüşləri keçirilir, onların təklif və rəyləri dinlənilir, qarşılaşdıqları çətinliklərin aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülür.***

Mayın 16-da Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Yenikənd kənd sakinləri ilə səyyar görüş-qəbulu keçirilmişdir. Görüş-qəbulda rayonun hüquq-mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak etmişlər.

Tədbirdəki giriş nitqində rayon icra hakimiyyətinin başçısı ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan uğurlardan, Prezident İlham Əliyevin diqqət və qayğısı ilə Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən danışmışdır.

Görüş-qəbulda xidmət təşkilatlarının rəhbərləri RİH-nin başçısına və tədbir iştirakçılarına yaşayış məntəqəsinin sosial durumu haqqında məlumat vermişlər.



Sonra kənd sakinləri dinlənilmişdir. Çıxış edən vətəndaşlar əraziyə asfalt yolun çəkilməsi, yeni artezian quyusunun qazılması və yaşayış məntəqəsinin fasiləsiz elektrik enerjisi ilə təchiz olunması, eləcə də digər sahələrdə görülən işlərə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirmişlər.

Görüş-qəbulda kənd sakinləri onları narahat edən sosial məsələlərin həlli ilə bağlı təkliflər də irəli sürmüşlər. Onlardan Şahhüseyn Qismətov, İlyas Əmiraslanov, Bayram Yəhyayev, Nazilə Yaralıyeva, Gülarə Şəkərxanova və başqaları əraziyə təbii qaz xəttinin çəkilməsini, yaşayış məntəqəsində işıq xətlərinin təmir olunmasını, yeni tibb məntəqəsinin tikilməsini, uşaq bağçasında əlavə qrupun açılmasını xahiş etmişlər.



Görüşdə vətəndaşların qaldırdıqları məsələlərlə bağlı aidiyyatı təşkilatların rəhbərlərinə RİH-nin başçısı tərəfindən müvafiq göstərişlər verilmişdir.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**